***2019**-cu il Azərbaycanda cəmiyyət həyatının bütün sahələrində qazanılmış uğurlarla yaddaşlarda qaldı. Sosial sahədə həyata keçirilən tədbirlər, kadr və struktur islahatları, çoxsaylı struktur layihələrinin icrası və digər faktlar ölkəmizin beynəlxalq aləmdəki nüfuzunun artmasını təmin etdi. Ancaq biz müharibə şəraitində yaşadığımıza və ərazilərimizin 20 faizinin hələ də işğal altında olduğuna görə əsas diqqətimiz xarici siyasətdəki və ordu quruculuğundakı uğurların artırılmasına yönəldilir.*

# Azərbaycanın hərbi potensialı ötən il daha da artmışdır

*Bizim hərbi potensialımız da möhkəmləndi. Keçən il bir çox silahlar, sursatlar, hərbi texnika alınmışdır və Azərbaycanda istehsal olunmuşdur. Təsadüfi deyil ki, Azərbaycan Ordusu hərbi potensialına, maddi-texniki təchizatına və döyüş qabiliyyətinə görə dünyada 52-ci yerdədir. Keçən il əldə edilmiş nəticələr, o cümlədən hərbi şəhərciklərin tikilməsi, təmiri, yeni müasir texnika ilə təchizat məsələlərinin həlli bizim hərbi gücümüzü daha da artırmışdır.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Prezident İlham Əliyev 2019-cu ilin yekunlarına həsr edilmiş müşavirədə bu məqamları xüsusilə qabardaraq dedi ki, keçən il bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənmişdir. Azərbaycanda bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir ki, onlar da ölkəmizin dünyadakı mövqeyini həm əks etdirir, həm də möhkəmləndirir. Dövlət başçımız xatırlatdı ki, Azərbaycan dünya müstəvisində çox etibarlı tərəfdaş kimi tanınır və bizim beynəlxalq gücümüz də ildən-ilə artır. Azərbaycanın öz qonşuları ilə çox möhkəm və qarşılıqlı maraqlar əsasında formalaşmış əlaqələri mövcuddur: “Bu əlaqələr keçən il daha da möhkəmləndi. Eyni zamanda, keçən il Azərbaycana Avropa İttifaqı Şurasının prezidentinin səfəri Avropa İttifaqı ilə Azərbaycan arasındakı əlaqələri də əks etdirir. Bu səfər bu əlaqələrə böyük töhfə vermişdir”.

Xatırladaq ki, dövlət başçımız həmin müşavirədə işğalçı ölkə rəsmisinin Ermənistanı Azərbaycanla müqayisə etmək kimi absurd cəhdinə münasibət bildirərkən demişdir ki, 2016-cı ildə Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində bir neçə dinc vətəndaş həlak olub. Onların arasında uşaqlar da olub: “Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi”.

Təbii ki, bütün bunlar Azərbaycan dövlətinin və xüsusən, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin ordu quruculuğuna, müdafiə sistemimizin təkmilləşdirilməsinə, hərbi hissələrin maddi-texniki bazasının möhkəmləndirilməsinə, əsgər və zabitlərin peşəkarlığının artırılmasına göstərdiyi qayğı və diqqətin nəticəsidir.

Dövlət başçımızın həmin qayğı və diqqətinə görədir ki, Azərbaycan Ordusu bu gün dünyanın ən güclü orduları reytinqində 52-ci, Ermənistan isə 96-cı yerdədir. Bu müqayisəni dilə gətirən dövlət başçımız xatırlatdı ki, hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Prezident məxsusi olaraq xatırlatdı ki, bu müqayisələri biz aparmamışıq: “Mənbə “Global Firepower 2019”- un hesabatıdır”.





Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində də bu məsələlərə münasibət bildirdi və dedi ki, Ermənistan– Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Bizim prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir:

“Bütün aparıcı beynəlxalq təşkilatlar münaqişə ilə bağlı qərarlar, qətnamələr qəbul etmişlər, öz mövqeyini ortaya qoymuşlar. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir, orada açıq-aydın göstərilir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış “Tərəfdaşlıq prioritetləri” sənədində Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərinin toxunulmazlığına böyük dəstək ifadə edilmişdir. Beləliklə, həm tarixi baxımdan, həm beynəlxalq hüquq baxımından Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir”.

Bu zaman bir məqamı da xatırlatmaq zərurəti ortaya çıxır. Belə ki, Azərbaycanın Müdafiə naziri, general-polkovnik Zakir Həsənov ötən il dekabrın 27-də qeyd etmişdi ki, dövlətimizin siyasi və iqtisadi əsaslarının möhkəmləndirilməsi, müdafiə qüdrətinin artırılması istiqamətində qəbul edilən qərarlar, atılan uğurlu addımlar böyük nailiyyətlərin əldə olunmasını təmin edir: “Görülən işlər bütün sahələrdə olduğu kimi, ordu quruculuğu prosesinə də müsbət təsirini göstərib. Əminliklə deyə bilərik ki, 2019-cu il Azərbaycan Ordusu üçün də uğurlu olub”.

Nazir vurğulamışdı ki, il ərzində Azərbaycan Ordusunun qoşun növləri cəlb edilməklə bir neçə genişmiqyaslı təlim, birlik və birləşmələrin iştirakı ilə 70-dən çox əməliyyat-taktiki və komanda-qərargah təlimi və məşqi keçirilib: “Eyni zamanda, hazırlıq planına uyğun olaraq, tədris ilində 15-dək briqada taktiki, 300-dən çox tabor (divizion) taktiki təlimi, eləcə də Hərbi Hava Qüvvələrində 80-dən artıq taktiki-uçuş və Hərbi Dəniz Qüvvələrində 6 gəmi-döyüş təlimi icra olunub”.

Çox təəssüf ki, Ermənistan rəhbərliyi bu reallıqları nəzərə almaq dərəcədə intellektə malik deyildir. Belə ki, ötən il Ermənistan rəhbərliyinin münaqişə ilə əlaqədar verdiyi cəfəng bəyanatlarla da yadda qaldı. Eləcə də, keçən il həmin bəyanatların Azərbaycan Prezidenti tərəfindən alt-üst edilməsi ilə də tarixləşdi. Ötən il onlar hətta deyirdilər ki, “Dağlıq Qarabağ respublikası” müstəqil dövlətdir və Azərbaycan bu “müstəqil dövlət”lə danışıqlar aparmalıdır. İlham Əliyev öz qətiyyətli və dərin məntiqə, dəlillərə söykənən arqumentləri ilə sübut etdi ki, bu, yalandır,



Dağlıq Qarabağ müstəqil dövlət deyil, heç bir ölkə bu qanunsuz qurumu tanımayıb, o cümlədən Ermənistan da tanımayıb və bu il ərzində danışıqlar prosesi Ermənistan və Azərbaycan arasında aparılmışdır: “Beləliklə, bu cəfəng tezis tamamilə darmadağın edilmişdir. Gah deyirdilər ki, Dağlıq Qarabağ Ermənistandır və nöqtə. Belə populist bəyanatlar vermək olar, amma bu populist bəyanatların arxasında dayanmaq mümkün deyil. Bu da yalandır, Dağlıq Qarabağ Ermənistan deyil, bütün dünya bilir və mən bunu bir daha bəyan etmişəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi”.

Azərbaycan xalqı və beynəlxalq arenadakı dostlarımız əmindirlər ki, dövlət başçımızın ardıcıl, düşünülmüş siyasəti münaqişənin həllinə gətirib çıxaracaq. Ölkəmizin iqtisadi və siyasi gücü, hərbi qüdrəti, demoqrafik artım sürəti- bütün bu amillər Azərbaycanın mövqeyini möhkəmləndirir. Xalq inanır ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Elə dövlət başçımız da bu fikirdədir: “Buna nail olmaq üçün biz daha da güclü olmalıyıq və bu istiqamətdə bu il böyük addımlar atılmışdır”.

***Hazırladı:***
***İttifaq MİRZƏBƏYLİ, “Xalq qəzeti”***